# İstedad və zəhmətin bəhrəsi

## *Rasim Nəbioğlunun "Mədəniyyət, İncəsənət, Ədəbiyyat" kitabının II cildinə "Ön söz"*



*Rəhim Əliyev*
*filologiya elmləri doktoru, professor*

1979-80-ci illərdə Siyəzəndən bir məktəb müəllimi, Azərbaycan Yazıçılar İttifaqının (indiki Birliyin) nəzdində "Gənc tənqidçilər studiyası"nın üzvü "Ədəbiyyat və incəsənət" qəzetinin Tənqid və ədəbiyyatşünaslıq şöbəsinə "Rasim Nəbioğlu" imzası ilə məqalələr gətirirdi. Mən şöbə müdiri kimi Rasimin tənqidə və yaradıcılığa maraq və meylini görüb, ona ayrı-ayrı kitablar, bədii əsərlər haqqında resenziya yazmaq üçün bir neçə tapşırıq verdim. Sonra yazılarından bəzilərini seçib ilk dəfə 1981-ci ildən başlayaraq qəzetimizdə çap etdik.

Rasim Siyəzən şəhərində Cəfər Cabbarlı adına 1 №-li orta məktəbi bitirmiş, sonra APXDİ-nin - indiki Azərbaycan Dillər Universitetinin İngilis-Azərbaycan dilləri fakültəsində təhsil almışdır. Onun "Mahiyyət, təzahür" adlı ilk məqaləsi də institutun çoxtirajlı "Bilik" qəzetində çap edilmişdir (1972). Burada Rasim mərhum şair, dosent Allahverdi Tağızadə və mərhum mütərcim filoloq Zeydulla Ağayevin rəhbərlik etdiyi "Cığır" ədəbi birliyində, həmçinin o dövrün Lenin və Sabir adına kitabxanalardakı dərnəklərdə, filosof-tənqidçi Asif Əfəndiyevin Bakı Dövlət Universitetində rəhbəri olduğu "Etik və estetik tərbiyə klubu"nda fəal iştirak edib, təfəkkür və qabiliyyətcə daha da yetişmişdir.

1977-ci ildə institutu bitirindən sonra Rasim Dəvəçi rayonunda (indiki Şabran) və Siyəzən şəhərində pedaqoji fəaliyyətə başlamış, pioner və məktəblilər evində dərnək rəhbəri, eləcə də direktor kimi çalışmış, həm də rayonun "Qurucu" qəzetində ştatdankənar müxbir olaraq yazılar çap etdirmişdir. Siyəzən şəhər mədəniyyət sarayında, Mikayıl Müşfiq adına 2 №-li orta məktəbdə, pionerlər evində dram, bədii özfəaliyyət, qiraət, "Gənc qələmlər" dərnəklərinə və "Xəzər" ədəbi birliyinə rəhbərlik etmişdir.

Mən Rasimin inkişafı naminə onu Azərbaycan Elmlər Akademiyasının Nizami (Gəncəvi) adına Ədəbiyyat İnstitutunda direktor müavini işləyən tanınmış tənqidçi və nəzəriyyəçi-alim, sonralar isə AMEA-nın müxbir üzvü olmuş mərhum prof. Yaşar Qarayevlə tanış etdim. O, 1982-ci ildə Yaşar müəllimin təqdimatı ilə imtahan verib institutun aspiranturasına (qiyabi) daxil oldu. Sonra mərhum akademik Məmməd Cəfər Cəfərovun elmi rəhbərliyi ilə "Hüseyn Cavidin estetik idealı" mövzusunda dissertasiya yazıb başa çatdırdı. Məmməd Cəfər müəllim dissertasiyanı oxuyandan sonra 1987-ci ildə etdiyi qeydlərində ona xitabən yazırdı: "Rasim! 1. Səhifələrdəki düzəlişlərə fikir ver. 2. Diqqətlə öyrən, soruş gör indiki Girişi necə yazırlar! Hər üç fəsil və nəticə mənə çox qüvvətli göründü. Gör bu giriş haqqında müzakirədə nə deyirlər. Onlar da desələr qüvvətləndirmək lazımdır, bir də bax. Məmməd Cəfər".

Öz elmi işində Rasim Şərq-Qərb fəlsəfi, etik, estetik nəzəriyyə və anlayışlara əsaslanaraq, həmçinin dahi alman filosofu Hegelin dialektik sistemindən çıxış edərək ilk dəfə, ümumiyyətlə, estetik ideal kateqoriyası - estetik idealın yaradıcılığa nəzərən kristal qəfəs yerində olması barədə, həmçinin sənətkarın, məxsusən H.Cavidin yaradıcılığında estetik idealın tədqiq edilmə zəruriliyi və əhəmiyyəti haqqında özünün orijinal olan konsepsiyasını irəli sürmüşdür. 2009-cu ildə Məmməd Cəfər müəllimə ehtiram əlaməti olaraq Rasim ona ithafla "Hüseyn Cavidin estetik idealı" monoqrafiyasını nəşr etdirmiş, sonralar böyük alimin haqqında sanballı bir məqalə də qələmə almışdır: "Akademik Məmməd Cəfər Cəfərov bir filosof və estetik kimi".

R.Nəbioğlu Azərbaycan Lenin kommunist gənclər ittifaqının nəzdində yaradılmış gənc yazıçıların ədəbi birliyində (rəhbəri mərhum şair Vaqif İbrahim) bir neçə il ərzində daha da püxtələşmiş, ədəbi tənqid və bədii yaradıcılıq sahəsində ardıcıl olaraq öz yazıları ilə mətbuatda çıxış etmişdir. Rasim orta məktəb illərindən başlayaraq teatr və kinoya göstərdiyi həvəs və məhəbbətin nəticəsində həm də, Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki ikiillik rejissorluq kursunu bitirmişdir (1988-1990).

Rasim eyni zamanda müəyyən vaxt ərzində öz əsas iş yeri ilə yanaşı, S.Vurğun adına Rus Dövlət Akademik Dram Teatrında da işləmişdir (1992). 1994-1997-ci illərdə isə doktoranturaya çıxmış və mərhum akademik Vasim Məmmədəliyevin elmi məsləhətçiliyi ilə "Azərbaycan ədəbiyyatında Şərq konteksti: islam ənənələri" mövzusunda dissertasiya üzərində tədqiqat aparmışdır. Bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Quba filialında direktor müavini vəzifəsini daşıyan və dərs deyən (1995) Rasim "Simurğ" Azərbaycan-İran Dostluq Cəmiyyətində sədr müavini və sədr kimi çalışmışdır. Bilavasitə onun təşkilatçılığı və rəhbərliyi ilə seçilmiş idarə heyəti, həmçinin "Simurğ"un ətrafında toplanmış yaradıcı ziyalılar, elmi işçilər və pedaqoqlar bir çox elmi-mədəni, ədəbi-bədii tədbirlər keçirmiş, həmçinin əlamətdar tarixləri, yubileyləri qeyd etmişlər ("Nizami lektoriyası"nın bərpası və burada oxunan silsilə mühazirələrin elmi müzakirələri, "Bizə hansı fəlsəfə lazımdır? Novruzum mənim-ruzim mənim", "Muğam hikməti", "Ədəbiyyatımızda qəzəl poeziyası", "Şahin Fazilin yaradıcılıq gecəsi" və s.).

Bəzi mətbuat orqanlarında və nəşriyyatlarda korrektor, müxbir, şöbə müdiri, redaktor və baş redaktor olmuşdur. Bir çox elmi, ədəbi və dini-fəlsəfi kitabların redaktorudur. Onun məqalələri, esse, mənsur şeir, hekayə, tərcümə və s. janrlarda qələmə aldığı yazıları ölkədə və xaricdə (ABŞ, İran, Rusiya, Türkiyə) çap olunmaqdadır. "Dərəzarat" (Nəzm. Nəsr. Tərcümə) adlı kitabı iki dəfə (2011 və 2013) nəşr edilmişdir. Rasimin bədii, həmçinin elmi tərcümə sahəsində çoxillik təcrübə və səriştəsi vardır; ingilisdilli müəlliflərin şeir, hekayə və kitablarını Azərbaycan dilinə, habelə Anar, Yusif Səmədoğlu, Əmir Pəhləvan, Ağarəhim Rəhimov və başqa milli yazıçıların əsərlərini isə ingilis dilinə tərcümə etmişdir. Rasim tərcüməşünaslıqda da bir mütəxəssis olaraq - elmi rəhbər, opponent və rəyçi kimi peşəkarlıqla fəaliyyət göstərmiş, habelə ingilis dili üzrə "Dərs vəsaiti", "Testlər" və "Danışıq kitabçası" yazıb çap etdirmişdir. Azərbaycan müxtəlif ali məktəblərində (Xəzər Universiteti, Pedaqoji Universitet, Tibb Universiteti, Lənkəran Dövlət Universiteti, Qərb Universiteti, Fövqəladə Hallar Akademiyası, Milli Konservatoriya) filoloji-linqvistik və pedoqoji-metodiki fənlərdən, eləcə də, etika, estetika, fəlsəfə, sosiologiya, kulturologiya və s. predmetlərdən mühazirələr oxumuş, dərs demişdir. Cənubi Rusiya Humanitar Universitetinin (Rostov-Don şəhəri) Bakı filialında Dillər və ədəbiyyat kafedrasının müdiri və dekan vəzifəsində işləmişdir (1999-2006). Həmin Universitetin fəxri professoru və Avrasiya İnzibati Elmlər Akademiyasının (Moskva şəhəri) müxbir üzvüdür.

Rasim Ədəbiyyat İnstitutunda işləməklə bərabər, 2007-2015-ci illərdə




həm də Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzində (indiki Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi) elmi katib, şöbə müdiri, habelə kulurologiya və sənətşünaslıq indeksləri Respublika Prezidentinin yanında Ali Attestasiya Komissiyasının siyahısındakı "Müasir mədəniyyətşünaslıq" elmi, metodiki, publisistik jurnalının elmi redaktoru kimi çalışmışdır.

Rasim Nəbioğlunun "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" (məqalələr, publisistika, rəylər) adlı hazırkı ikinci kitabı onun 2017-ci ildə nəşr olunmuş eyniadlı birinci kitabının bir növ davamıdır.

Doğrudur, Rasim son vaxtlar daha çox klassik ədəbiyyat, nəzəriyyə, bədii yaradıcılıq, gözəllik fəlsəfəsi və mədəniyyətşünaslıq məsələlərindən, həmçinin ictimai həyat, zaman, din, insan və cəmiyyət qayğılarından yazmış, maraqlı xatirələr qələmə almışdır: "Hüseyn Cavidin "Topal Teymur" dramı", "Cəfər Cabbarlının həyat və yaradıcılıq salnaməsi", "2018-ci ilin ədəbi yekunu. Nəzəriyyə", "Zamanla üz-üzə", "Ədəbiyyatda gözəllik aləmi", "Epos və estetik ideal" adlı məqalələri, həmçinin Nikolay Dobrolyubov, Maksim Qorki, Üzeyir Hacıbəyli, Əlməmməd Mustafayev, Mikayıl Müşfiq, Səməd Vurğun, Məhəmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə və b., habelə dastanlarda estetik ideal haqqında yazıları və s. bu qəbildəndir.

Rasimin maraq dairəsi genişdir: bədii ədəbiyyatla yanaşı, incəsənətin digər növləri - teatr, kino, televiziya, musiqi, təsviri və dekorativ-tətbiqi sənət, habelə mədəniyyət və sənətşünaslıq məsələləri. Bu baxımdan onun teatr tamaşaları, bədii filmlər haqqında resenziyaları, sosioloji oçerkləri, müsahibələri, rəyləri, İlyas Əfəndiyev, Ərtegin Salamzadə, Tərlan Ağayev, Timuçin Əfəndiyev, Sabir Mirzəyev, Həsən Əbluc, Arif Abdullazadə, Əliabbas Qədirov, Vahid Əziz, Kamal Abdullayev, Əli Məmmədov, Yusif Hacıyev, Elşad Məmmədov və b. ilə bağlı qələm məhsulları diqqətəlayiqdir.

Bununla belə, onun öz müasirləri olan tanınmış yazıçı, şair, sənət adamları, alimlər barədə - professorlardan N.Z.Hatəmi xanım, Məmməd Əliyev, Lyudmila Səmədova, Samət Əlizadə, Ağayar Şükürov, Sakit Hüseynov, İslam Ağayev, İsmayıl Məmmədli, Məhərrəm Qasımlı, Fəxrəddin Yadigar, Talətdin Bağırov, Məhəmmədəli Mustafayev, həmçinin yazıçı və şairlərdən Hüseyn Abbaszadə, Qasım Qasımzadə, Məmməd Araz, Əkrəm Əylisli, Namiq Abdullayev, Aslan Qəhrəmanov, Sabir Süleymanov, Tahir Hüseynov, Vaqif Nəsib, Aydın Qədimoğlu, Davud Nəsib, Seyran Səxavət, Musa Ələkbərli, İslam Sadıq, Müşfiq Cabiroğlu, Əli Rza Xələfli, Vaqif Bəhmənli, Gəray Göyyurd, habelə 80-90-cı illər ədəbi nəslinin yaradıcılığına həsr edilmiş analitik məqalələrinə də rast gəlirik. Vaxtilə R.Nəbioğlunun Azərbaycan Yazıçılar Birliyinin üzvlüyündə qəbul edilməsi üçün mərhum yazıçı Əlibala Hacızadə və mərhum tənqidçi Nadir Cabbarov ilə birlikdə mən də zəmanət vermişəm.

Rasim ədəbiyyata, mədəniyyətə, ayrı-ayrı sənət növlərinə və nəzəri-estetik problemlərə əsasən sosioloji və kulturoloji mövqedən yanaşmağa üstünlük verir.

Rasimin bir tənqidçi, alim və publisist kimi istedadı ilə zəhmətinin bəhrəsi olan bu mövzu və məzmunca rəngarəng yazılarının əksəriyyəti vaxtilə dövri mətbuatda, elmi nəşrlərdə işıq üzü görmüşdür, bir qismi isə ilk dəfə çap edilir. Bəzən onların qələmə alındığı və ya çap edildiyi konkret dövrün ictimai-siyasi şəraitindən irəli gələn, həmçinin sosial-mədəni mühiti ilə zəruri olan müəyyən xüsusi ad, termin və mülahizələrə də rast gəlirik ki, hörmətli oxucunun belə məqamlara anlayışla yanaşacağına və burada özü üçün "rasional toxumlar"ın səpildiyi müəyyən sahələr tapa biləcəyini ümid edirik.

***2021***